AİDS, Vərəm və Malyariya
ilə mübarizə üzrə
QLOBAL FOND

LAYİHƏNİN ƏLAQƏLƏNDİRMƏ BÜROSU

**HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Programı**

WWW.GFAIDS.AZ
WWW.GFTB.AZ

## Bəşəriyyətin AİDS və Vərəmdən xilası hər birimizdən asılıdır!

*İNFORMASİYA BÜLLETENİ* **№13, 05 Fevral 2010-cu il**

## AİDS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun əsas iş prinsipi ondan ibarətdir ki, o, HİV, Vərəm və Malyariya xəstəliklərinin müalicəsi və bu xəstəliklərin qarşısının alınmasına dəstək olur

### Azərbaycan və xarici mütəxəssislər vərəm problemlərini müzakirə edir

**Respublika Vərəmlə Mübarizə Konfransı mütəxəssisləri bir araya gətirdi.**

2009-cu ilin oktyabr ayının 9-da Ambassador mehmanxanasında 200-dən artıq vərəm üzrə mütəxəssis vərəm xəstəliyinin aşkar olunması, müalicəsi və müalicədən sonrakı dövrü müzakirə etmək məqsədilə Vərəm və Ağ Ciyər Xəstəliklərinə dair II Elmi-Praktiki Respublika Konfransına toplaşmışdılar.




AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fond, USAİD-in İlkin Səhiyyə Xidmətlərinin Gücləndirilməsi layihəsi tərəfindən dəstəklənən və



Vərəmlə Mübarizə Milli Proqramı tərəfindən təşkil olunan bu tədbir vərəm məsələləri üzrə rəylərin və təcrübələrin mübadiləsinə kömək etmək üçün təşkil olunmuşdu.

Konfrans Səhiyyə Nazirliyinin, Milli Vərəm Proqramının, USAİD-in, AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun, Ədliyyə Nazirliyinin və başqa təşkilatların nümayəndələrinin giriş sözləri ilə açıldı.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycandakı nümayəndəsi Skot Teylor öz çıxışında bildirmişdir: “Biz bilirik ki, Səhiyyə Nazirliyi və Vərəm Əleyhinə Milli proqram vərəmlə mübarizə sahəsində əhəmiyyətli irəliləyişlər əldə edib. Biz hamımız vərəmlə bağlı vəziyyətin, xüsusilə rezistent formaların nə qədər ağır olduğunu anlayırıq. Rezistent formaların əmələ gəlməsinə səbəb olan amillər müxtəlif və mürəkkəbdir. Lakin bu problemlərin həlli istiqamətində müəyyən dəlillərin əldə edilməsi müsbət haldır.” Skot Teylor USAİD-in əməkdaşlıq etdiyi təşkilatlar sırasında Ümumdünya Səhiyyə Təşkilatı, Qlobal Fond, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digərlərinin adını çəkib.

Çıxış edənlər arasında, AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun portfolio meneceri Sanrda İrbe də var idi və o, təmsil etdiyi təşkilatın Azərbaycanda vərəm əleyhinə tədbirlərin dəstəklədiyini bildirdi.

Daha sonra Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinin rəisi Rəfael Mehdiyev çıxış edərək vərəm xəstəliyinin bütün dünyada aktual problem olduğunu qeyd etdi: “Bu baxımdan ölkəmiz də istisna deyil. Bizim tibb müəssisələrimiz bu sahədə sıx əməkdaşlıq həyata keçirir. Burada Qlobal Fondun dəstəyindən istifadə etmək imkanı çox vacib amillərdən biridir”.

Daha sonra Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Elcan Məmmədbəyov Azərbaycan Respublikasında vərəm üzrə epidemioloji vəziyyət barəsində məruzə etdi. Çıxış zamanı professor Məmmədbəyov qeyd etdi ki, vərəmə yoluxma hallarını aşağı salmaq üçün bütün səylər göstərilir və göstəriləcək. Vərəmə yoluxmuş xəstələrin müalicəsi üçün hər növ dərman

preparatları var və qeydiyyata düşdükdən sonra onlar dərmanları pulsuz şəkildə əldə edə bilərlər. E. Məmmədbəyov xəstələrin öz xəstəliyini gizlətməyə çalışmasının böyük bir problem olduğunu bildirdi: "Bu stiqmanı aradan götürmək lazımdır. Xəstələr bilməlidir ki, vaxtında müalicə olunan xəstələr tam sağala bilir. Onlar davamlı olaraq müalicə götürsələr parlaq nəticə əldə oluna bilər. Vərəm hava-damcı yolu ilə keçir. Lakin bu xəstəliyin yaranmasında sosial problemlər də az rol oynamır. Nəmlik, rütubətlilik, aclıq immuniteti zəiflədir və yoluxma baş verir. Vərəmə yoluxma halları qadınlara nisbətən kişilərdə daha çox özünü biruzə verir".

Konfrans zamanı yuxarıda göstərilənlərlə yanaşı vərəm xəstələrinin aşkarlanmasının müasir xüsusiyyətləri, ölkədə laborator xidmətin vəziyyəti və perspektivləri və s. mövzular əhatə olunmuşdur. Ümumilikdə, konfrans bütün iştirakçılar üçün faydalı oldu.

**Bolqarıstanın Sofiya şəhərində AIDS, vərəm və malyariya üzrə regional konfrans keçirilib**

24-26 noyabr 2009-cı il tarixlərində Bolqarıstanın Sofiya şəhərində Qlobal Fondun xətti ilə həyata keçirilən HİV/AİDS, vərəm və malyariya ilə mübarizədə Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin nümayəndələri üçün növbəti regional konfrans təşkil edilmişdir. Konfransda 16 ölkədən olan 250 nümayəndə (Əsas Resipientlər, Ölkə Əlaqələndirmə Komissiyaları və proqramın həyata keçirilməsinə cəlb olunmuş bir çox qeyri hökümət təşkilatlarından olan üzvlər) iştirak etmişdir. Bu tədbirə həmçinin Fonda texniki dəstək göstərən bir sıra qurumların nümayəndələri də dəvət olunmuşdur. Bunlardan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), BMT-nin AİDS-lə mübarizə proqramı (UNAİDS), Dünya Bankı və ikitərəfli dəstək nümayiş etdirən USAİD, GTZ və Fondun yerli agentliyini göstərmək olar.

Konfransın əsas hədəfləri kimi bölgədə əməkdaşlığın və üç ağır xəstəliklə mübarizədə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, müayinə və profilaktikanın aparılması istiqamətində birgə fəaliyyətin təşkil olunmasını qeyd etmək olardı.




Gündəmdə olan məsələlərdən biri proqramların icrasını təkmilləşdirmək və bu sahəyə marağın artırılması ilə texniki dəstəyin mövcud olmasına nail olmaqdır. Sub-resipiyentlər arasında əlaqələrin gücləndirilməsi, milli plan və sistemlərə əsaslanan monitorinqlərin təşkil olunması və, o cümlədən, bunun mülki cəmiyyətlə işlərin aparılması nəticəsində həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu işlərin düzgün icra olunması Qlobal Fond tərəfindən iyul ayında təsis olunan Əməkdaşlıq Forumu çərçivəsində müəyyən olunub.

Konfransın təşkil olunmasında qarşıya qoyulan əsas meyarlar kimi Qlobal Fondun 9-cu raundu çərçivəsində görüləcək işlər haqqında əldə olunan nəticələri diqqətə çatdırılması və növbəti 10-cu raundda qrantların həyata keçirilməsinə QHT-lərin əsas və yaxud sub resipientlər kimi layihələrə cəlb olunmasının təmin edilməsini göstərmək olar. Bundan əlavə, tədbir zamanı AİDS, vərəm və malyariya ilə mübarizədə BMT-nin təklif etdiyi tədbirlər planı, proqramların maliyyələşdirilməsi, regionlararası əməkdaşlığın prioritet məsələləri müzakirə edilmişdir.

Qlobal Fondun struktural inkişafının gücləndirilməsi, katiblik və mövcud proseslərə əsaslanan informasiya mübadiləsinin təkmilləşdirilməsi və bu sahədə ayrı-ayrı ölkələrin təcrübələrindən istifadə olunması əsasında mövcud qaydaların həyata keçirmə mexanizminin yaradılması və, o cümlədən, Ölkə Əlaqələndirmə Komissiyasının fəaliyyətinin optimallaşdırılması və müəyyən olunmuş qrantların müzakirə olunması konfransda əsas mövzulardan biri hesab olunub.

Qeyd olunan məsələlər gələcəkdə Qlobal Fondun bölgələrdə HİV, Vərəm və Malyariya üzrə proqramlarının həyata keçirilməsində bir sıra tədbirlər planının hazırlanmasına gətirib çıxaracaqdır və bu sahədə mövcud nəzarət mexanizmini gücləndirəcəkdir. Bununla da iştirakçılar əldə olunan imkanlardan istifadə etməklə bu sahədə maksimum inkişaf və nailiyyətin əldə olunmasına cəlb olunmalıdırlar.

Tədbir zamanı BMT-nin AİDS-lə mübarizə Proqramının dünyada HİV/AİDS-lə bağlı son hesabatı təqdim olunub. Hesabatda bildirilir ki, 2008-ci ildə 2.7 milyon insan AİDS xəstəliyinə yoluxaraq, xəstələrin ümumi sayını 33.4 milyona çatdırmışdır. Bu göstəricilər yeni yoluxma hallarının əvvəlki illərə nisbətən azaldığını göstərməyə əsas verir. Açıqlanmış məlumata əsasən, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində 8 minə yaxın HİV-lə yaşayan insanların həyatında ARV terapiyanın qəbulu nəticəsində olduqca müsbət nəticələr əldə olunmuşdur.

Konfrans istirakçılari, o cümlədən, 2010-cu il üçün Şərqi Avropa və Mərkəzi Asiya ölkələri ilə bağlı fikir mübadiləsi apararaq gələcəkdə epidemiyanın hər ölkədə spesifik fəaliyyət istiqamətinin müəyyən olunması barədə müzakirələr aparmışdır.

Tədbirdə Azərbaycanı Səhiyyə Nazirliyinin HİV/AİDS, Vərəm və malyariya layihəsinin işçi qrupun mütəxəssisləri, Ədliyyə Nazirliyi, ÜST-ün yerli nümayəndəsi və bir QHT təmsil edirdi.

**HİV-lə yaşayan insanların hüquqlarının təminatı ilə bağlı ictimai müzakirə keçirilib**

ACİ-YF-ın texniki və USAİD-in maliyyə dəstəyi ilə dekabr ayının 4-də Ambassador otelində "AİDS-lə

Mübarizə" İctimai Birliyi tərəfindən HİV-lə yaşayan insanların hüquqlarının təminatı ilə bağlı hazırkı vəziyyətə və HİV-lə yaşayan insanlara münasibətdə stiqma və diskriminasiyanın mövcudluğuna dair dəyirmi masa keçirilmiş və ictimai müzakirələr təşkil olunmuşdur. Tədbirdə Qlobal Fondun Azərbaycanda Layihə Əlaqələndirmə Bürosunun, Respublika QİÇS-lə Mübarizə Mərkəzinin, Sağlamlığa Çağırış QHT Alyansının və digər beynəlxalq və yerli QHT-lərin nümayəndələri iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan AİDS-lə Mübarizə İctimai Birliyinin sədri Nofəl Şərifov təşkilatın indiyə qədər həyata keçirdiyi fəaliyyətə dair hesabat xarakterli çıxış etmişdir. Daha sonra müzakirələr əsasən, HİV-li insanlara münasibətdə stiqma və diskriminasiyanın mövcudluğu üzərində quruldu, bununla bağlı konkret misallar ətrafında fikir mübadiləsi aparıldı.

Tədbirdə iştirak edən HİV-li insanlar öz şəxsi təcrübələri və ətrafda baş verən hadisələrə dair öz düşüncələrini açıqladılar. Qeyd olundu ki, ümumiyyətlə, HİV-li insanlara qarşı stiqma və diskriminasiya demək olar ki, cəmiyyətin bütün təbəqələrində müşahidə olunur. HİV-li insanlar daha çox sağlamlıq hüquqlarını həyata keçirərkən, əmək hüquqlarından istifadə edərkən damğalama və ayrı-seçkilik ilə üzləşirlər.

Müzakirələrdə iştirak edənlərin fikrincə, bu münasibəti dəyişmək üçün bir neçə istiqamətdə təbliğat və maarifləndirməyə ehtiyac var, çünki, damğalama və HİV xofu əsasən, bu problemlə bağlı məlumatsızlıqdan irəli gəlir.

Tədbir iştirakçıları vurğuladılar ki, HİV-li insanlara münasibətin dəyişdirilməsi və tolerantlığın yaradılması baxımından daha çox diqqət yetirilən sahə KİV və ictimaiyyət arasında aparılan təbliğatın gücləndirilməsidir. Lakin eyni zamanda, HİV-li insanlara cəmiyyətin münasibətinin hazırkı durumuna dair fundamental araşdırma aparılmadan problemdən effektli çıxış yolları barədə danışmaq mümkün deyil.

**Dərmana Davamlı Vərəm xəstələrinin müalicəsi ilk dəfə mülki sektorda aparılır.**

2008-ci ilin avqust ayında başlanmış, HİV/AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun maliyyələşdirdiyi proqram çərçivəsində, 2009-cu il yanvar ayının 12-də mülki sektorda Dərmana Davamlı Vərəm xəstələrinin müalicəsi məqsədilə seçim prosesinin növbəti mərhələsi aparılmışdır.

Pasiyentlərin seçimi üzrə tibbi-konsultasiya komissiyasının sədri Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktorudur. Komissiya heyətinə həmçinin Bakı şəhərinin baş ftiziatoru, 4 saylı vərəm dispanserinin baş həkimi, Ədliyyə Nazirliyinin vərəm əleyhinə proqramının koordinatoru, həkim bakterioloq, həkim rentgenoloq və mərkəzi aptek anbarının müdiri daxildir. Bundan əlavə, seçim prosesində müşahidəçi qismində Qlobal Fondun nümayəndələri də iştirak edirlər.

Seçim zamanı həkimlər pasiyentlərin anamnezini və xəstəliyin gedişatı haqqında tam məlumatı komissiyanın üzvlərinə təqdim edirlər və onlar öz növbəsində müzakirələrdən sonra rəylərini verirlər. Pasiyentlərin seçim prosesi rentgenoloji, bakterioloji və digər meyarlar əsasında aparılır və adətən seçilmiş xəstələrin sırasına birinci kursdan sonra müalicə olunmamış pasiyentlər düşür.

Qlobal Fond proqramının ilk mərhələsi




çərçivəsində 4 saylı vərəm dispanserində müalicə almaq məqsədilə 26 pasiyent seçilmişdir və hal-hazırda, onlardan 10 nəfəri artıq yaşayış yeri üzrə ambulator müalicəyə keçirilib.

Proqramın növbəti mərhələsini aparmaq məqsədilə Yaşıl İşıq Komitəsi tərəfindən daha 70 pasiyent üçün ikinci sıra preparatların ayrılması təsdiq olunub. Hal-hazırda 50 Dərmana Davamlı Vərəm xəstələri seçilmişdir və onlardan artıq 40-ı müalicəni qəbul etməyə başlayıblar. Keçmiş nəticələrə əsaslanaraq, qarşıdakı mərhələni keçirmək üçün, Yaşıl İşıq Komitəsi 240 nəfər üşün dərmanların ayrılmasını təsdiq edib.

Xəstələrin ambulator müalicəsini aparmaq məqsədilə, respublikanın bir çox regionlarında 68 Birbaşa Müalicəyə Nəzarət məntəqəsi açılmışdır. Bundan əlavə, müalicə zamanı daha yaxşı nəticələrə nail olmaq üçün Qlobal Fond proqramı çərçivəsində bütün müalicə alan Dərmana Davamlı Vərəm xəstələrinə ərzaq payı verilir.

Mütəxəssislərin sözlərinə görə Dərmana Davamlı Vərəmin tam müalicə kursu təqribən 22-24 ay müddətini əhatə edir.

**Ölkədə aparılan HİV infeksiyası üzrə epidemioloji araşdırmaların nəticələri açıqlandı**

8 dekabr 2009-cu il tarixində Ambassador otelinin konfrans zalında Respublika QİÇS-lə Mübarizə Mərkəzinin təşkilatçılığı, BMT-nin ÜST, UNİCEF, UNAİDS, UNODC və Qlobal Fond təşkilatlarının texniki və maliyyə dəstəyi ilə Azərbaycanda HİV-infeksiyasının əhalinin həssas qrupları arasında yayılma göstəricilərinin hesabatı ilə bağlı konfrans keçirildi. Konfrans zamanı "Azərbaycan Respublikasında HİV infeksiyasının yayılma göstəricisinin və əhalinin bəzi həssas qruplarının davranışında yoluxma riski amilinin tədqiqi" layihəsi üzrə 2007-ci ilin oktyabr ayından 2008-ci ilin iyun ayınadək olan müddətdə həyata keçirilmiş araşdırılmaların nəticələri təqdim olunub. Bu layıhə HİV infeksiyasının diaqnostikası üzrə

regional laboratoriyalar şəbəkəsi, Ədliyyə Nazirliyinin penitensiar dövlət tibb xidməti, bir QHT və ictimai təşkilatların əməkdaşlığı ilə həyata keçirilib. Tədqiqat Azərbaycanın yeddi şəhər və rayonunda aparılıb. Qeyd edək ki, həmin layihə ÜST Avropa bürosunun MDB ölkələrində HİV infeksiyasına ikinci nəsil epidemioloji nəzarətin tətbiq edilməsi üzrə təşəbbüsü çərçivəsində 2003-cü ildə Azərbaycanda həyata keçirilmiş seroloji-epidemioloji və davranış araşdırmasının davamıdır. Ölkənin müxtəlif bölgələrində davranışlarına görə daha həssas qruplar arasında inyeksion narkoistifadəçiləri, seks bizneslə məşğul olanlar, küçə uşaqları, məhbuslar arasında HİV infeksiyasının, hepatitlərin və sifilisin yayılma dərəcəsini aşkarlamaq üçün epidemioloji müayinələr aparılıb. Tədqiqatın bütün iştirakçıları arasında HİV və digər infeksiyaların yoluxma yolları və yeni preventiv metodları barəsində məlumat verilib və tibbi, sosial yardımın alınması üçün Respublika QİÇS-lə Mübarizə Mərkəzinə müraciət etmək üçün şərait yaradılıb.

Konfransı giriş sözü ilə açan Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Həqiqət Qədirova bildirdi ki, tədbirin keçirilməsinin əsas məqsədi bu sahədə çalışan bütün mütəxəssislərə layihənin nəticələrini işıqlandıraraq ətraflı məlumat verməkdir.

Həqiqat xanım tədqiqatın nəticələrinə əsaslanaraq bildirdi ki, Azərbaycanın bir sıra rayonlarında insanın immun çatışmazlığı virusuna (HİV) yoluxma halları paytaxtdan yüksəkdir. Belə ki, Bakıda və Abşeronda bu virusa yoluxma azalsa da, bölgələrdə bunun əksi müşahidə olunur. Onun sözlərinə görə indi Bakıda AİDS-ə yoluxma 30 faiz təşkil edir. Ən yüksək yoluxma Şirvan və Hacıqabul regionlarında qeydə alınıb. Yəni bu bölgələrdə AİDS-ə yoluxma əhalinin hər 100 nəfərinə görə daha yüksəkdir.

Gələcəkdə layihənin nəticələri HİV infeksiyası üzrə yeni profilaktik proqramların planlaşdırılması və artıq həyata keçirilən proqramların effektivliyinin artırılması üçün istifadə ediləcək və həssas qruplar arasında nəzarətin gücləndirilməsinə imkan yaradacaq.

**ARV-terapiya və ARV-profilaktika**

01 yanvar 2010-cu il tarixinə olan məlumata əsasən Respublika QİÇS-lə Mübarizə Mərkəzində AİDS mərhələsində olan 450 HİV-ə yoluxmuş insan qeydə alınmışdır, onlardan 3-ü əcnəbidir.

2009-cu ilin dekabr ayı ərzində 43 xəstə ARV-terapiyaya cəlb olunmuşdur. Onlardan 13-ü penitensiar xidməti müəssisələrində müalicə almışdır. ARV-terapiyaya cəlb olunanlardan 25 nəfəri İNİ, 4-ü - hamilə qadın, 1-i isə uşaqdır. Həmin dövr ərzində 3 uşaq ARV- preparatları profilaktik məqsədlə qəbul etmişdir.

Ümumilikdə 330 nəfər (242- kişi, 88 - qadın) ARV-terapiyaya cəlb olunub. Onlardan 133 nəfərinin müalicəsi 2009-cu ildə başlanıb.

Respublika QİÇS-lə Mübarizə Mərkəzindəki RND-nin tabeçiliyində olan Anonim Narkoloji Kabinetdə Metadonla Əvəzedici Müalicə davam edir. HİV/AİDS daşıyıcısı olan Metadon proqramının iştirakçılarının sayında artım müşahidə olunur. Keçən ilin dekabr ayının sonuna olunan məlumata görə, Metadonla müalicəyə yeni 17 nəfər qəbul olunub, onlardan 9-u HİV daşıyıcısıdır. Hal-hazırda 141 nəfər pasient Metadonla Əvəzedici Proqramın iştirakçısıdır, onlardan 33 nəfəri HİV daşıyıcısıdır, 9 nəfəri isə vərəm xəstəsidir. Onlardan 4-ü qadın, 137-si isə kişidir.

**HIV-lə yaşayan insanlara palliativ yardım**

"HIV/AIDS-lə yaşayan insanlara stasionarda və ev şəraitində palliativ yardımın təşkili" layihəsi çərçivəsində palliativ yardımın göstərilməsi davam etdirilir. 2009-cu ilin oktyabr-dekabr aylarında cəmi 811 xəstə (onlardan 140-ı yeni xəstə) palliativ yardımla təmin olunmuşdur. 811 xəstədən 42 nəfərə (onlardan 16-sı yeni xəstə) stasionar şəraitdə palliativ yardım göstərilmişdir. Xəstələrin ailə üzvlərinə və yaxınlarına psixoloji yardım da göstərilmişdir.

**6 saylı Vərəm dispanserində əsaslı təmir-bərpa və inşaat işləri gedir**

1 iyul 2009-cu il tarixində HİV/AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun maliyyə dəstəyi ilə Suraxanı rayonunun Zığ qəsəbəsində yerləşən 6 saylı vərəm əleyhinə dispanserin əsaslı təmir-bərpa və inşaat işləri başlanıb.



Əsaslı təmir-tikinti işlərinin 2010-cu ilin mart ayının sonuna kimi başa çatdırılması planlaşdırılır. Hal hazırda, Səhiyyə Nazirliyinin və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) standartlarına uyğun fəal iş gedir.



Dispanser 90 nəfərlik çarpayılarla və bütün lazım olan avadanlıqla təmin olunacaq. Qurulacaq mərkəzləşmiş havalandırma və mikroblardan təmizlənmə sistemi də

ÜST expertlərinin rəyi əsasında qurulur. Bu unikal sistem vərəm mikobakteriyalarının yayılmasına imkan vermir və təkrar yoluxmanın qarşısını alır.
İnşaat şirkəti ilə olan razılaşmaya əsasən hər həftə görüşlər keçirilir və görülən işlərin müzakirəsi aparılır. Görüşlər zamanı sifarişçi tərəfindən müvafiq düzəlişlər edilir və təkliflər verilir.



HİV/AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Azərbaycanda Layihə Əlaqələndimə Bürosunun nümayəndəsi Samir Nağıyevin sözlərinə görə dispanserin əsaslı təmir-bərpa və inşaat işləri fəal və təsdiq olunmuş iş planına uyğun aparılır..

**Vərəmin səmərəli profilaktikası və müalicəsi üçün kommunikasiya materiallarının hazırlanması layihəsi**

Fevralın 2-də Azərbaycan Media Mərkəzində Azərbaycan Səhiyyə Kommunikasiya Assosiasiyası (ASKA), Total E&P Azərbaycan V.P. tərəfindən maliyyələşdirilən "Azərbaycanda vərəmin səmərəli profilaktikası və müalicəsi üçün kommunikasiya materiallarının hazırlanması" layihəsinin təqdimatı keçirilib.

Tədbirdə Milli Vərəm Proqramının, AİDS,



Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun, Ədliyyə Nazirliyinin, qeyri hökumət təşkilatlarının, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin və başqa təşkilatların nümayəndələri iştirak ediblər.
Tədbiri giriş sözü ilə açan Azərbaycan Səhiyyə Kommunikasiya Assosiasiyasının idarə heyətinin sədri Nurlan Əliyev iştirakçılara layihə haqqında ətraflı məlumat verib.

Daha sonra öz giriş sözündə Vərəm Əleyhinə Milli Proqramın rəhbəri, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Elcan Məmmədbəyov vərəm xəstəliyinin bütün dünyada, həmçinin Azərbaycanda da böyük problem olduğunu bildirib. Onun sözlərinə görə, 2007-ci ildə Azərbaycanda 6500 vərəmə yoluxmuş xəstə var idi və hal-hazırda bu rəqəm 5130-a enib. Professor Məmmədbəyov qeyd etdi ki, 2009-cu ilin iyun ayının 16-da, Qlobal Fondun maliyyə dəstəyilə Bakıda Milli İstinad Laboratoriyası fəaliyyətə başlayıb və artıq 1670 xəstədə mikroskopiya, 400 nəfərdə bakteriyaların əkməsi və 200 nəfərdə dərmanlara davamlığının müayinəsi aparılıb. Bundan əlavə, Naxçıvan, Quba, Zaqatala, Masallı və digər rayonlarda yeni bakterioloji laboratoriyalarla təchiz olunmuş vərəm dispanserləri tikilib.



Vərəm Əleyhinə Milli Proqramın rəhbəri əhalinin məlumatsızlığını da diqqətə çatdırıb: "Sorğularımız göstərir ki, bu sahədə əhalinin biliyi çox azdır. Bu xəstəliyə yoluxma necə başlanır? İlkin əlamətləri nədir? Bundan başqa, əhalidə bir fikir var ki, müalicə pulludur. Əslində isə Azərbaycanda vərəm əleyhinə müayinə, müalicə və dərmanlar pulsuzdur."

Layihənin əlaqələndiricisi Əzizova Cəmilə öz çıxışında qeyd edib: "Layihənin məqsədi məlumatlılığı artırmaqdır. Bunun üçün layihə çərçivəsində 2 video reklam çarxı, 1 tədris filmi və bir çox çap materialları hazırlanacaq. Biz inanırıq ki, layihənin sonunda qarşımıza qoyduğumuz məqsədə çata biləcəyik."

Tədbirin sonunda, mütəxəssislər jurnalistləri maraqlandıran sualları cavablandırıb və onlara ümumi işlərində müvəffəqiyyət arzulayıblar.

**Zərərin Azaldılması proqramlarına dövlət dəstəyi üçün qanunverici zəmin var**

**HİV haqqında yeni qanun bu virusla mübarizədə profilaktik metodların genişləndirilməsinə təkan verəcək**

Milli Məclisin keçən ilin son günlərində keçirilən iclasında 1-ci oxunuşdan keçən HİV haqqında qanun layihəsi ilə bağlı («İnsanın İmmunçatışmazlığı Virusunun törətdiyi xəstəliklə (HİV infeksiyası ilə) Mubarizə haqqında») müzakirələr 2010-cu ildə də davam etdiriləcək. Fevral ayının 12-

nə təyin edilən iclasda gündəlikdə duran məsələlərdən biri də bu qanun layihəsinin 2-ci oxunuşudur, Qeyd etmək lazımdır ki, 1-ci oxunuşda yekdilliklə qəbul edilən qanun layihəsinin 2-ci oxunuşda da millət vəkilləri tərəfindən dəstəklənəcəyinə böyük ümid var.

HİV-ə qarşı mübarizə də daxil olmaqla, ən müxtəlif komponentləri özündə əks etdirən bu qanun layihəsinin hazırlanmasında parlamentin sosial siyasət daimi komissiyası ilə birlikdə beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətinin nümayəndələri fəal iştirak edib və hazırda müzakirələrə təqdim olunan sənəd olduqca mükəmməl qanun layihəsi kimi qəbul edilir. Həmçinin bu qanun HİV-ə qarşı mübarizədə çox effektiv tədbirlərin həyata keçirilməsində qanunverici zəmin olacaq. Bunlardan ən başlıcası qanun layihəsində yer alan zərərin azaldılması proqramlarının tətbiqinə aid olan komponentdir.

Azərbaycan Zərərin Azaldılması Şəbəkəsi üzvü, Hüquqi İnkişaf və Demokratiya İctimai Birliyinin sədri Zülfiyyə Mustafayevadan aldığımız məlumata görə, millət vəkilləri tərəfindən diqqətlə nəzərdən keçirilən qanun layihəsində zərərin azaldılması fəaliyyətinə dair nəzərdə tutulan maddələr çox dəstəklənir və deputatların sözlərinə görə, indiyə qədər zərərin azaldılması proqramlarının tətbiqi HİV-in profilaktikasında önəmli rol oynayıb. Bununla bağlı millət vəkilləri bildirir ki, risqli davranışa malik qruplar arasında HİV-in profilaktikası ilə bağlı onların əldə etdiyi məlumatlar göstərir ki, bu proqramlar həssas qruplar, ələlxüsus, narkoistifadəçilər arasında olduqca effektlidir. Məsələn, parlamentin sosial siyasət daimi komissiyasının üzvü Musa Musayevin sözlərinə görə, HİV haqqında qanun layihəsinin qəbulunu zəruri edən səbəblər çoxdur: «Yeni qanunda əsas məqam HİV virusunun Azərbaycanda yayılmasında əsas risq qrupu kimi çıxış edən venadaxili narkoistifadəçilərilə işin daha ciddi və düzgün qurulması ilə bağlıdır. Qanun layihəsi cəzaçəkmə müəssisələrində HİV-in yayılmasının qarşısının alınması yönündə profilaktik tədbirlərin reallaşdırılması, o cümlədən, zərərin azaldılması proqramlarının tətbiqini nəzərdə tutur. Düşünürəm ki, bunlar həm narkomaniyanın, həm də HİV infeksiyasının yayılmasının qarşımının alınmasında çox uğurlu bir addım olacaq».

Milli Məclisin sosial siyasət komissiyasının digər üzvü İlham Məmmədov da zərərin azaldılması proqramlarının HİV-in profilaktikasında effektiv vasitə olduğuna əmindir. Millət vəkilinin sözlərinə görə, bu qanun layihəsinin qəbulu ölkədə HİV epidemiyasına qarşı mübarizə işlərinə böyük təkan verəcək və layihədə yer alan zərərin azaldılması komponenti HİV-lə mübarizədə əhəmiyyt kəsb edir.

Ümumiyyətlə, yeni qanun layihəsi millət vəkilləri tərəfindən birmənalı olaraq dəstəklənir və bunu layihənin birinci oxunuşdakı müzakirəsi zamanı səslənən fikirlərdən də görmək olardı. Qeyd etmək vacibdir ki, zərərin azaldılması komponentinin qanun layihəsində yer alması gələcəkdə bu fəaliyyətin dövlət tərəfindən maliyyələşdirilməsi üçün qanunverici zəminə çevrilir. Çünki hazırda zərərin azaldılması proqramları qeyri-hokumət təşkilatları tərəfindən həyata keçirilir və ötən illər ərzində pilot layihələr xarakteri daşıyıb. 2002-ci ildə 2 layihə ilə başlanan bu fəaliyyət hazırda 20-dək təşkilat tərəfindən koordinasiya edilmiş şəkildə həyata keçirilən bir fəaliyyət xarakteri alıb və bu fəaliyyətin daha da genişləndirilməsi və bütün ölkə regionlarını əhatə etməsi üçün dövlət dəstəyinə ehtiyac var. Hazırda parlamentdə müzakirə olunan qanun layihəsi isə özünün effektivliyini artıq təsdiqləmiş zərərin azaldılması proqramlarının dövlət dəstəyi ilə davam etdirilməsinə böyük təkan verə bilər.

**Layihənin Əlaqələndirmə Bürosunun informasiya bülleteni Qlobal Fondun “Azərbaycanda HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Proqramı çərçivəsində nəşr edilir.**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Layihənin Əlaqələndirmə Bürosu**

Bakı ş., AZ1005,
T. Əliyarbəyov küçəsi 3
2-ci mərtəbə

Tel:(+99412) 4982016
4982032
Faks:(+99412) 4982001
erasulova@gfaids.az,
rvezirov@gftb.az
www.gfaids.az
www.gftb.az

**Müalicə və diagnostika təyin edilməsi ilə bağlı Respublika QİÇS-lə Mübarizə Mərkəzinə müraciət edə bilərsiniz**

Bakı ş., AZ1022,
Mir-Kasımov küçəsi 1/8

Tel:(+99412) 5100869
Faks:(+99412) 4947353
office@aids.az

Investing in our future
THE GLOBAL FUND
To Fight AIDS, Tuberculosis & Malaria

**HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Programı**